# “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 485, 2001, №12, maddə 736; 2010, №10, maddə 839) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-ci maddə üzrə:

1.1.1. 8-ci hissədə “qaydada” sözündən sonra “maliyyə bazarlarına nəzarət orqanından” sözləri əlavə edilsin;

1.1.2. 9-cu və 10-cu hissələrdə “Bank fəaliyyətinə xüsusi razılıq verən orqan” sözləri “Maliyyə bazarlarına nəzarət orqanı” sözləri ilə əvəz edilsin.

1.2. 9-cu maddənin 1-ci hissəsində “bank fəaliyyəti üçün xüsusi razılıq verən orqana” sözləri “maliyyə bazarlarına nəzarət orqanına” sözləri ilə əvəz edilsin.

1.3. 17-ci maddənin 2-ci hissəsində və 18-ci maddənin 2-ci hissəsində “bank fəaliyyətinə xüsusi razılıq verən orqan” sözləri “maliyyə bazarlarına nəzarət orqanı” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Maliyyə bazarlarına nəzarət haqqında müvafiq qanun qəbul edilənədək kredit ittifaqlarında kredit fəaliyyətinin yoxlanılması maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilən qaydada aparılır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2016-cı il*